Xalq qəzeti 2021.- 23 fevral.- S.1;2.

*Bizim Qələbəmiz tarixi Qələbədir. Biz tarixi ədaləti bərpa etdik. Biz öz haqlarımızı bərpa etdik, biz şəhidlərimizin qanını aldıq, biz düşməndən qisas aldıq və qayıtmışıq. İndi isə bərpa işləri gedir və gedəcək. Mən demişəm, biz bu bölgəni – Qarabağı cənnətə çevirəcəyik. Artıq bütün göstərişlər verilib. Bütün işlər görülür, planlı şəkildə görüləcək və biz bundan sonra bu torpaqlarda əbədi yaşayacağıq. Heç kim bizi bundan sonra bu torpaqlardan tərpədə bilməz.*

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**




# "Bizim qələbəmiz tarixi qələbədir"

***Düz 33 il bundan əvvəl qəsbkar Ermənistan Qarabağın dağlıq bölgəsini və ətraf rayonları özününküləşdirmək məqsədilə azərbaycanlılara qarşı qətliamlar, qırğınlar törətməyə, ərazilərimizi işğal etməyə başladı. Getdikcə azğınlaşan düşmən problemin dinc və danışıqlar yolu ilə həllindən daim yayınaraq, hətta beynəlxalq təşkilatların qərar və qətnamələrini qulaq ardına vurmaqdan belə çəkinmədi. Eyni zamanda, yeni ərazilərimizin işğalını davam etdirmək kimi azğın niyyətini də gizlətmədi. Elə bunun nəticəsi idi ki, işğalçı ötən il iyul ayının 12-16-da Azərbaycan–Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində, oktyabrın 26-da isə yeni humanitar atəşkəs rejimini ciddi şəkildə pozaraq, bərpa edilən dövlət sərhədlərimizdə məqsədyönlü şəkildə təxribatlar törətdi.***

Bu hadisələr, eyni zamanda, bir daha onu göstərirdi ki, dünyada hələ də tam ədalətli bir sistem qurulmayıb. Müxtəlif maraqlar, xüsusilə böyük dövlətlərin mənafe toqquşmaları dövlətlər arasında münasibətlər sisteminin beynəlxalq hüquqa əsaslanmasına imkan verməyib. Əgər belə olmasaydı, Azərbaycanın 20 faiz ərazisini işğal edən Ermənistan təxribatlara son qoyar, qanun qarşısında cavab verər, ərazilərimizdən geri çəkilməyə məcbur edilərdi. Lakin bütün bunların əvəzində işğalçı dövlət ötən illərdə hər addımda ədalətsiz şəkildə müdafiə edilir, silahlandırılırdı.

Bax, belə ədalətsiz yanaşmanın nəticəsində Ermənistan–Azərbaycan arasında qarşıdurma getdikcə daha da gücləndi, vurğuladığımız kimi, işğalçı tərəfindən ardıcıl şəkildə təxribatlar törədilməyə başlandı. Əlbəttə, burada Sarkisyan-Koçaryan separatçı koalisiyası, Paşinyan rejimi müstəsna rol oynadı.

"Soros çevrilişi" nəticəsində hakimiyyətə gələn Paşinyan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində sağlam düşüncə və xoş məram nümayiş etdirmək əvəzinə, məkrli siyasət yürütməyə, hərbi eskalasiya prosesinin, necə deyərlər, canlandırılmasına üstünlük verdi. O, işğal edilən ərazilərə tez-tez səfər etməyə başladı və belə səfərlərin birində şəxsən "Qarabağ Ermənistandır və nöqtə" şüarını səsləndirdi. Ermənistanın müdafiə naziri "ərazilər müqabilində sülh" formulundan imtina etdiyini bildirdi və "yeni ərazilər uğrunda yeni müharibə" məzmunlu yeni hərbi konsepsiya irəli sürdü.

Paşinyan növbəti mənfur əməlini sentyabrın 27-də reallaşdırdı, ölkəmizə qarşı təxribat törətdi, Azərbaycanın hərbi obyektlərini və mülki əhalisini hədəfə aldı. Bu isə Vətən müharibəsinin başlanmasına gətirib çıxardı.

Azərbaycan Ordusunun peşəkarlıq, qəhrəmanlıq nümunəsi sayəsində, cəsarət, hünər, əzm hesabına 44 gün ərzində 300-ə yaxın kənd, 5 şəhər, 4 qəsəbə, çoxsaylı strateji yüksəkliklər azad olundu. Düşmənin çox sayda hərbi texnikası məhv edildi, silahlı qüvvələrinə ciddi zərbə vuruldu. Birgə bəyanat imzalanan ərəfədə isə artıq vahid komandanlığı olmayan, müqavimət qabiliyyətini itirən, başıpozuq dəstələrə çevrildi. Beləliklə, ermənilərin "Böyük Ermənistan" və "Dağlıq Qarabağ respublikası" xülyalarına birdəfəlik son qoyuldu. Bir sözlə, 30 il davam edən danışıqlar prosesində Ermənistan nail olmaq istədiklərinin heç birini əldə edə bilmədi, Dağlıq Qarabağın statusunun müəyyənləşdirilməsi məsələsi birdəfəlik aradan qaldırıldı.

Vətən müharibəsində işğalçı Ermənistanın, həm də terrorçu dövlət olduğu bir daha təsdiqini tapdı. Düşmən döyüşdə uduzduğunu anladığına görə, respublikamızın cəbhə xəttindən kilometrlərlə uzaq ərazisini əməliyyat-taktiki raket komplekslərindən uzaqmənzilli ballistik raketlərlə atəşə tutdu. Azərbaycanın ikinci böyük şəhəri Gəncənin mülki əhalisinin sıx yaşadığı məntəqələrinə, eyni zamanda, ölkəmizin əsrlərdən bəri qorunub saxlanan tarixi məkanlarına zərbələr endirdi. Qəbələ, Kürdəmir və Siyəzən istiqamətlərində də raketlər buraxdı, mülki vətəndaşlarımızı atəşə tutmaqla, infrastrukturumuzu dağıtmaqla qeyri-insani xislətini, beynəlxalq hüquqa, ali bəşəri dəyərlərə zərrə qədər də olsun məhəl qoymadığını nümayiş etdirdi.

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev çıxışlarının birində deyib: "İkinci Qarabağ müharibəsi tarixdə Azərbaycanın şanlı qələbəsi kimi qalacaq. Bu qələbənin qazanılmasında bütün xalqımız birlik, həmrəylik göstərmişdir. Atılan addımlar bir məqsədi güdürdü – qısa müddət ərzində az itkilərlə düşmənə elə sarsıdıcı zərbələr vuraq ki, məcbur olub torpaqlarımızdan çıxsın. Döyüş meydanında qazanılmış qələbələr siyasi müstəvidə də qələbənin qazanılmasını şərtləndirdi. Əgər döyüş meydanında biz bu qələbəni qazanmasaydıq, inanmıram ki, işğalçı qalan torpaqlardan çıxacadı. Necə ki, torpaqlarımızı 30 ilə yaxın müxtəlif yollarla işğal altında saxlamağa can atan düşmən bu işğalı əbədi etmək istəyirdi, biz danışıqlar yolu ilə də heç bir nəticə əldə edə bilməzdik. Biz bu müharibəni şəhidlərimizin canı, qanı bahasına, hərbçilərimizin rəşadəti hesabına, dövlətimizin siyasəti hesabına qazanmışıq...".

Dövlətimizin başçısı çıxışlarında Vətən müharibəsində parlaq qələbəmizin xalqımızın tarixində əbədi qalacağını, Azərbaycanın həm döyüş meydanında, həm də danışıqlar masası arxasında istədiyinə nail ola bildiyini vurğulayıb. Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı və Şuşa şəhərlərinin hərbi güc hesabına azad edildiyini, bayrağımızın o doğma yurd yerlərində sancıldığını diqqətə çatdırıb. Bununla da bütün dünya Azərbaycanın gücqüdrətinin şahidi olub.

Bu gün Ermənistanın terrorçu və anti-insani mahiyyəti işğalçı ölkənin yalnız Azərbaycan üçün deyil, bölgədəki hər bir dövlət üçün təhdid və təhlükə mənbəyi olmasından xəbər verir. Ona görə də region dövlətləri tərəfindən də bu, aydın dərk edilməlidir. Onlar anlamalıdırlar ki, qonşu dövlətlərə qarşı davamlı şəkildə ərazi iddiaları irəli sürən, ərazisində terror təşkilatları yerləşdirən Ermənistan bölgə üçün də böyük təhlükədir. Region dövlətləri də Azərbaycanın haqq işini tam dəstəkləməli, terrorçu Ermənistana təzyiq göstərməklə onun neytrallaşdırılmasına nail olmalıdırlar. Regionda sülhü və təhlükəsizliyi təmin etməyin yeganə yolu məhz budur.

Hazırda düşməndən təmizlənən yaşayış sahələrinin yenidən qurulması, bərpası qarşıda duran ən mühüm məsələlərdən biridir. Bu ərazilərdə gerçəkləşdiriləcək abadlıq-quruculuq işlərinin miqyası da, şübhəsiz ki, çox böyükdür.

Prezident, Ali Baş Komandan İlham Əliyev Laçın rayonunun Güləbird kəndində Azərbaycan bayrağını qaldırdıqdan sonra çıxış edərək, deyib: "Bərpa işləri arasında elektrik enerjisi ilə təchizatı, əlbəttə ki, xüsusi yer tutur. Bu məqsədlə müharibədən dərhal sonra ilk günlərdən biz bu işlərlə məşğul olmağa başlamışıq. İlk növbədə, Şuşa şəhərini elektrik enerjisi ilə təmin etmək üçün əməli addımlara start verilmişdir və birinci mərhələ başa çatıb. "Azərişıq" artıq Şuşa şəhərinə elektrik xətlərini çəkib. Şuşa şəhərini dayanıqlı elektrik enerjisi ilə təmin etmək və ondan sonra şəhərin inkişafını təmin etmək üçün "Azərenerji" Səhmdar Cəmiyyəti də Şuşa şəhərinə yüksəkgərginlikli xətlər çəkir və Şuşa şəhərində elektrik yarımstansiyası inşa edir".

Bu gün işğaldan azad edilən yaşayış sahələrinin bərpası layihələrinin gerçəkləşdirilməsinə başlanılıb. Bu məqsədlə mükəmməl inkişaf konsepsiyası hazırlanıb.

Yeri gəlmişkən, bərpa ilə əlaqədar kompleks yanaşmanı təmin etmək üçün dörd mərhələdə fəaliyyətin reallaşdırılması nəzərdə tutulur. Bu, ilkin mərhələdə idarəetmə və təhlükəsizliyi, infrastruktur məsələlərinin həllini, növbəti mərhələlərdə isə sosial xidmətlərin fəaliyyətini, iqtisadiyyatın yenidən qurulması və inkişafını özündə ehtiva edir.

(ardı 2-ci səhifədə)

# “Bizim qələbəmiz tarixi qələbədir”

*(əvvəli 1-ci səhifədə)*

Azərbaycan Prezidentinin tapşırığına uyğun olaraq, hər bir bölgənin təbii ehtiyatları, ənənəvi iqtisadiyyat sahələri, nəqliyyat qovşaqları nəzərə alınaraq, müvafiq iqtisadi rayonun profili, ixtisaslaşması nəzərdə tutulub. Həmçinin bu işlərin görülməsi zamanı dövlət vəsaitlərinə qənaət edilməsi və investisiyaların səmərəliliyinin artırılması məqsədilə ayrı-ayrı sahələr üzrə dövlət-özəl sektor tərəfdaşlığından geniş istifadə edilməsi, xüsusi güzəştli iqtisadi rejimin tətbiqi nəzərdə tutulur.

Erməni vandalları tərəfindən Qarabağın ekologiyasına, su təsərrüfatına, meliorasiya sisteminə ağır zərbə vurulub. Suqovuşan Hidroqovşağı və oradan su götürən Tərtərçay magistral kanalları yararsız hala salınıb. Bununla bağlı bərpa-quruculuq işlərinin aparılması üçün Tədbirlər Proqramı hazırlanaraq, hökumətə təqdim edilib.

Proqramın əsas məqsədi uzun illər erməni təcavüzünə məruz qalan suvarılan torpaqların kənd təsərrüfatında istifadəsinə şərait yaratmaqdır. Sonrakı mərhələdə isə bu obyektlərin müasir səviyyədə yenidən qurulması və inkişafına nail olmaqdır.

Hazırda işğaldan azad edilən ərazilərdə sektorlar üzrə investisiya qoyuluşu, həmçinin investorların cəlb edilməsi ilə bağlı məsələlər araşdırılır. Şuşa və bir neçə yaşayış məntəqəsi istisna olmaqla qalan bütün ərazilərin həm sosial şərtləri, həm də iqtisadiyyatının sıfırdan qurulması nəzərdə tutulur. Şübhəsiz ki, belə bir prosesin həmin ərazilərin reabilitasiyasından sonra həyata keçirilməsi məqsədəuyğun sayılır.

Ermənistanın hərbi təcavüzündən azad olunan 1, 7 milyon hektar Azərbaycan ərazisinin əksər hissəsi müxtəlif növ kənd təsərrüfatı məhsullarının becərilməsi üçün yararlıdır. Həmin məhsulların emalı yeyinti sənayesində yeni güclərin yaranmasına, etibarlı təchizat bazasının formalaşdırılmasına imkan verəcəkdir. Ona görə də təbii ehtiyatlara əsaslanan sənaye müəssisələrinin qurulması, aqrar potensial nəzərə alınmaqla, iri emal sənayesi komplekslərinin yaradılması bu yaşayış məntəqələrinə qayıdan sakinlərin sosial şəraitinə, həyat tərzinə əsaslı təsir göstərəcək. Təbii ki, bu prosesdə dövlətlə bərabər, özəl sektor da fəal iştirak edəcək. Xüsusilə xarici investorların cəlbi istiqamətində müəyyən imtiyazlar müəyyənləşdiriləcək, vergi-gömrük sistemində müvafiq güzəştlərin tətbiqinə önəm veriləcək. Bir sözlə, gerçəkləşdiriləcək strateji proqramda iqtisadi islahatlardan, mülkiyyət toxunulmazlığına zəmanətdən tutmuş məhkəmə münaqişələrinin ədalətli həllinə qədər bütün məsələlər öz ifadəsini tapacaq.

Beləliklə, Azərbaycan Prezidentinin rəhbərliyi ilə işğaldan azad edilən Qarabağ torpaqları iqtisadiyyatımızın daha sürətli inkişafı üçün yaxın gələcəkdə yeni potensial imkanları genişləndirəcək, Azərbaycanın iqtisadi göstəricilərinə görə regionun lideri mövqeyini möhkəmləndirəcək.

***Vaqif BAYRAMOV, “Xalq qəzeti”***